# Qəbələ V Beynəlxalq Mürəbbə Festivalı

## Azərbaycan Respublikası Milli Məclisinin deputatı, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərovun çıxışı

**Əziz dostlar!**

**Hörmətli qonaqlar!**

Çox məmnunam ki, biz sizinlə gündən-günə gözəlləşən Qəbələdə yenidən möhtəşəm bir bayrama toplaşmışıq. Qəbələdə növbəti V Beynəlxalq Mürəbbə Festivalı—şirinlik bayramı keçirilir. Qeyd olunduğu kimi artıq üçüncü ildir ki, bu bayram beynəlxalq status daşıyır. Bu ona görədir ki, burada mürəbbə festivalının keçirilməsi ilə əlaqədar başlanmış təşəbbüs bir çox xarici ölkədə bəyənilmiş və onlar da bu festivalda iştirak etmək istədiklərini bəyan etmişlər. Bu şirinlik festivalında iştirak etmək istəyən ölkələrin sayı ildən-ilə artır. Ölkəmizin regionlarından da mürrəbə festivalına həm məhsulunu baxışa sərgiləyən, həm də tamaşaçı qismində iştirak edənlərin sayı ildən-ilə çoxalır. Bu cür festivallar insanları bir-birinə yaxınlaşdırır, xalqların bir-birinin adət və ənənələrinə, mədəniyyətinə yaxından bələd olmasına, təbliğinə və hörmət etməsinə şərait yaradır.

Tolerantlığın və milli kimliyə hörmətin bariz nümunəsi olan Azərbaycanımız bu gün dünyanın hər yerində tanınır. Vətənimizdə çox böyük beynəlxalq miqyaslı tədbirlər keçirilir. Fərəhli haldır ki, bu tədbirlərin bir qismi gözəl Qəbələmizdə baş tutur.



Ulu öndər Heydər Əliyev 2002-ci ilin qızılı payız günlərində burada olarkən Qəbələnin təbii gözəlliyinə heyran olduğunu dilə gətirmiş, buranın tanınmış turizm diyarına çevrilməsi üçün öz tövsiyələrini vermişdir. Ümummilli liderin arzusu yerinə yetmiş, Qəbələ dünyada tanınan gözəl və cəlbedici turizm diyarına çevrilmişdir. Ulu öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev Qəbələnin tanınmış turizm diyarına çevrilməsi işinə böyük qayğı və diqqət göstərir. Ölkə rəhbəri burada turizmin inkişafı sahəsində görülən işləri yüksək qiymətləndirmiş və Qəbələni Bakıdan sonra ikinci böyük turizm və beynəlxalq miqyaslı tədbirlər diyarı kimi dəyərləndirmişdir.

Bu gün Azərbaycanda, o cümlədən Qəbələdə olan bu inkişaf, uğurlar ulu öndər Heydər Əliyev yolunun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən əzmkarlıqla davam etdirilməsinin nəticəsidir. Ölkəmizin gələcəyi, xalqımızın rifahı naminə yorulmaz fəaliyyətində möhtərəm Prezidentimizə yeni uğurlar arzulayıram.

Azərbaycan həqiqətlərinin, xüsusən, qədim və zəngin mədəni irsinin qorunması və təbliği, dünyada tanınması sahəsində Azərbaycan Respublikasının Birinci vitse prezidenti, Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük xidmətləri vardır. Mədəniyyətimizi dünyada tanıdan beynəlxalq miqyaslı tədbirlər bilavasitə onun təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilir.

Bu gün xeyirxahlığı və nəcibliyi ilə nəinki ölkəmizdə, bütün dünyada tanınan Mehriban xanımın ad günüdür. Mədəniyyətimizin hamısı, xeyirxahlıq və şəfqət simvolu olan Azərbaycanın Birinci vitse prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanı ad günü münasibətilə təbrik edir, ona vətənimizin, xalqımızın daha firavan gələcəyi uğrunda fəaliyyətində yeni uğurlar, cansağlığı, xoşbəxtlik diləyirəm.

Bir daha mürəbbə festivalı—şirinlik bayramı münasibətilə hamınızı təbrik edirəm. Qoy həmişə həyatınız şirin və ovqatınız xoş olsun.

# Qədimliyi və müasirliyi birləşdirən şirinlik bayramı

**(Əvvəli 2-ci səhifədə).**





Hər bir bölgədən, xarici ölkələrdən gəlmiş komandalar müxtəlif sərgilərdə mürəbbə və şirniyyat sahəsində öz peşəkarlıqlarını nümayiş etdirirdilər.

Festival çərçivəsində xalq tətbiqi sənəti ustalarının əsərlərindən ibarət sərgi-yarmarkalar, həmçinin, Qəbələnin bədii kollektivlərinin çıxışları da təşkil edilib.

Saat 12 tamamda Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova festivalın qonaqlarını, bütün iştirakçıları salamlayaraq tədbiri açıq elan etdi, tədbirin proqramını və iş qaydasını açıqladı. Çıxış üçün söz Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevə verildi. **(Çıxışın tam mətni qəzetimizin bu sayında dərc olunur).** Respublika Ağsaqqallar Şurasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Fəttah Heydərov festival iştirakçılarına müvəffəqiyyət, tamaşaçılara gözəl istirahət, xoş əhval-ruhiyyə arzuladı. **(Çıxışın tam mətni qəzetimizin bu sayında dərc olunub).**





Daha sonra Respublika Mədəniyyət və Turizm nazirinin birinci müavini Vaqif Əliyev, Ümumdünya Kulinariya Təşkilatının prezidenti Tomas Guqler, respublika Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov çıxış etdilər.

Çıxışlar bitdikdən sonra hazırlanmış şirniyyatlara, mürəbbələrə baxış mərasimi başlandı. Münsiflər heyəti, yerli sakinlər rayonumuza respublikamızın digər bölgələrindən və xarici ölkələrdən gəlmiş tamaşaçılar nümayiş olunan şirniyyat və mürəbbələrə çox böyük maraqla tamaşa etdilər.

Münsiflərin rəyi əsasında iştirakçıların gözü qarşısında ən yaxşı mürəbbə hazırlayan şəxslər müəyyən edildi. Festivalda hamının tanıdığı ənənəvi mürəbbələrdən başqa qeyri-adi mürəbbələr də (qarğıdalı, günəbaxan, yemiş, xiyar, badımcan, limon, bənövşə, nanə, itburnu, cır alça, pomidor, yerkökü, sarı moruq, eləcə də müalicəvi çiçək və otlardan, bitkilərdən hazırlanan mürəbbələr) nümayiş olundu.

Müsabiqədə Azərbaycan mürəbbələri çeşidinə və keyfiyyətinə görə digər ölkələrin məhsulundan daha üstün hesab edildi.

Günün ikinci yarısında münsiflər heyəti sərgilənən bütün məhsullara, əl işlərinə baxışı başa vurdu və qiymətləndirmə mərasimi oldu.

Mürəbbə müsabiqəsində 3 nominasiya üzrə qaliblər elan olundu. İştirakçılara kubok, medal və qiymətli hədiyyələr verildi.

Festival maraqlı konsert proqramı ilə davam etdirildi.

**✍ Qüdrət SƏMƏDOV.**
**Fotolar İlkin Vəlizadənindir.**